F. Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Birinci Türkoloji Qurultay

## (1926, BAKI)



(Daycest)

**Bakı - 2026**

Məlumat-biblioqrafiya şöbəsi

Əkbərova Aysel

Bakı şəhəri, S.Vurğun küçəsi 88

(+99412) 597-08-79, daxili nömrə: 25

info@clb.az

ushaqkitabxanasi@gmail.com

childlibbaku@yahoo.com

instagram.com/childlibazerbaijan

facebook.com/Usaqkitabxanasi

youtube.com/@ChildLibAzerbaijan

**© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026.**

**Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2026-cı ilin fevral ayında Bakı şəhərində Birinci Türkoloji Qurultayın təşkilinin 100 ili tamam olur.

Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır.

Bakı şəhəri XX əsrin əvvəllərindən intellektual həyatın yüksək səviyyəsi ilə seçildiyi və dünya türkologiyasının nüfuzlu mərkəzlərindən biri kimi tanındığı üçün Birinci Türkoloji Qurultaya ev sahibliyi etmişdir. Türk respublikaları arasında yeni əlifbanın ilk kütləvi tətbiqinə məhz Azərbaycanda başlanılması isə hələ XIX əsrdən etibarən burada mütərəqqi düşüncəli ziyalıların əlifba islahatı uğrunda apardıqları ardıcıl mübarizənin nəticəsi idi.

Birinci Türkoloji Qurultayda səslənən başlıca fikir və müddəaların həyata keçməsinin qarşısı az sonra bolşevik rejiminin və sovet totalitar idarə üsulunun yaratdığı maneələrlə sərt formada alınmış, qurultay nümayəndələrinin böyük əksəriyyəti 1930-cu illər repressiyasına məruz qalmış, bununla da türkologiyanın inkişafına olduqca ağır zərbə vurulmuşdur. Yalnız ötən əsrin sonlarında əldə etdikləri milli müstəqillik türk xalqlarının mənəvi dirçəliş yollarını işıqlandırmış, mühüm problemlər sırasında latın qrafikalı ümumtürk əlifbasının tətbiqini bir daha aktuallaşdırmışdır.

Birinci Türkoloji Qurultayın vaxtilə irəli sürdüyü bir çox ideyalar müasir şəraitdə uğurla gerçəkləşdirilir. Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində diqqətəlayiq nailiyyətlər qazanılmışdır. Türk ölkələri arasında qardaşlıq ruhu ilə müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi və qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru qətiyyətlə atılan addımlar artıq davamlı xarakter daşımaqdadır. 2025-ci il oktyabrın 6–7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 12-ci Zirvə Görüşünün Bəyannaməsində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışının öz əksini tapması bunun daha bir təzahürüdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın və bütövlükdə türk dünyasının XX əsr elmi-mədəni həyatının parlaq səhifəsini təşkil etdiyini nəzərə alaraq, Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinin təmin olunması məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 22 oktyabr 2025-ci il*

**Birinci Türkoloji Qurultayın 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2016-cı ildə Bakı şəhərində Birinci Türkoloji Qurultayın keçirilməsinin 90 illiyi tamam olur.

Türkoloji Qurultay türk xalqlarının mədəni inteqrasiyasında yeni mərhələnin təməlini qoymuş diqqətəlayiq hadisələrdəndir. Qurultayda əsaslı müzakirə obyektinə çevrilmiş problemlərlə bağlı böyük perspektiv əhəmiyyətə malik qərarlar qəbul edilmiş, latın qrafikalı yeni əlifbaya keçidin elmi-metodik prinsipləri işlənib hazırlanmışdır. Həmin əlifbanın ilk kütləvi tətbiqinə türkdilli respublikalardan məhz Azərbaycanda başlanılması hələ XIX əsrdən etibarən burada mütərəqqi ziyalıların əlifba islahatı uğrunda fəal şəkildə apardıqları mübarizənin nəticəsi idi. Lakin sovet idarə üsulu çox keçmədi ki, bütün bunların ardıcıl gerçəkləşdirilməsinin qarşısını müxtəlif vasitələrlə aldı.

XX yüzilliyin sonlarına doğru Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bərpa etməsi ilə Azərbaycan dilinin rəsmi dövlət dili statusu qəti surətdə təsbit edildi və Türkoloji Qurultay tərəfindən vaxtilə irəli sürülmüş tövsiyələrin müasir şəraitdə uğurla həyata keçirilməsi üçün əlverişli zəmin yarandı. Bir əsr boyunca üçüncü dəfə dəyişdirilməyə məruz qaldıqdan sonra latın qrafikalı yeni əlifbaya keçildi və ölkənin ictimai-siyasi həyatının, xalqın yazı mədəniyyəti tarixinin taleyüklü məsələlərinin həlli istiqamətində mühüm addımlar atıldı.

Qurultaydan bəri ötən dövr türkologiyaya dair araşdırmalar sahəsində yeni konsepsiyaların formalaşdırılması, Azərbaycanın türkoloji araşdırmaların nüfuzlu mərkəzlərindən biri kimi tanınması və türk xalqlarının mədəni-mənəvi birliyinin nəzəri-elmi bünövrəsinin yaradılması ilə əlamətdardır. Qazanılan nailiyyətlər eyni zamanda Qurultayın təşkili işinə töhfələr vermiş totalitar rejim qurbanı görkəmli alimlərin xatirəsinə ehtiramın ifadəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni həyatında müstəsna rol oynadığını nəzərə alaraq, Birinci Türkoloji Qurultayın 90 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə Birinci

Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 18 fevral 2016-cı il.*

**Birinci Türkoloji Qurultayın 80 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2006-cı ilin fevral ayında Bakıda Birinci Türkoloji Qurultayın keçirilməsinin 80 illiyi tamam olur.

Qurultay türkdilli xalqların tarix və etnoqrafiyasının, dil və ədəbiyyatlarının aktual problemlərinin həllində mühüm rol oynamış, bu xalqların mədəni inkişafında yeni bir mərhələnin təməlini qoymuşdur. Qurultayda müzakirə obyekti olan problemlər arasında türk dillərinin əlifba, orfoqrafiya və terminologiyası məsələləri xüsusi yer tutmuş, bu sırada isə yeni əlifbaya keçidi təmin etmək başlıca məqsəd olmuşdur.

Əlifba islahatı məsələsi Azərbaycanda XIX əsrdən başlayaraq, Mirzə Fətəli Axundov başda olmaqla dövrün tərəqqipərvər ziyalılarının diqqət mərkəzində dayanmışdır. Həmin dövrdən etibarən Azərbaycan mədəniyyətinin inkişafını müəyyənləşdirən Avropa yönümlü maarifçilik hərəkatının nümayəndələri latın qrafikası əsasında tərtib olunmuş əlifba ideyası uğrunda mübarizə aparmışlar. Məhz buna görə belə mütərəqqi hərəkatın önündə gedən Azərbaycanın əlifba islahatlarının həyata keçirilməsində də qabaqcıl mövqe tutması təbii hal kimi qarşılanmalıdır. Hələ 1922-ci ildə Azərbaycan hökumətinin qərarı ilə yaradılmış "Yeni türk əlifba komitəsi"nin səyləri nəticəsində 1923-cü ildən etibarən latın əsaslı əlifbaya keçmə prosesi sürətlənmiş, bu isə yeni əlifbaya keçidlə bağlı tərəddüd edən türkdilli xalqların daha mütəşəkkil fəaliyyətinə təkan vermişdir. Bu baxımdan türk dünyasında uzun illər ərzində aparılan mübahisə və müzakirələrə son qoymuş Türkoloji Qurultayın artıq dünya türkologiyasının mərkəzinə çevrilən Bakıda keçirilməsini qanunauyğun hal hesab etmək mümkündür. Qurultaydan sonra yeni əlifbanın tətbiqi xüsusilə geniş vüsət alsa da, təəssüf ki, 1940-cı ildə siyasi motivlərə görə qəti olaraq dayandırılmışdır.

Bununla belə, Azərbaycan xalqının qabaqcıl nümayəndələri sonralar da dilimizin inkişafı yolunda öz imkanları daxilində bu və ya digər dərəcədə fəaliyyət göstərmişlər. Əllinci illərin siyasi ab-havasında meydana çıxan yumşalma ana dili ilə bağlı proseslərin müsbət istiqamətdə sürətlənməsinə müəyyən təsir göstərmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra isə dilimizin inkişafı yeni mahiyyət kəsb etmişdir. Bu proses Azərbaycan dilinin tərəqqisində növbəti mərhələnin başlanğıcı olmuşdur. Həmin illərdən etibarən Azərbaycan dilinin istifadə dairəsi genişlənmiş, onun tədrisi və tədqiqi ilə məşğul olan müəssisələrə xüsusi qayğı göstərilməyə başlanmışdır.

Azərbaycan dili sabiq Sovet İttifaqı xalqlarının dilləri arasında öz ölkəsinin konstitusiyası ilə təsbit edilmiş az sayda dövlət dillərindən biri olmuşdur.

Müstəqillik illərində dilimiz sözün əsil mənasında dövlət dili statusu qazanmışdır. Heydər Əliyev tərəfindən imzalanmış "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli, 506 nömrəli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli, 552 nömrəli müvafiq fərmanlar isə ana dilimizin inkişafında mühüm istiqamətverici sənədlər hesab edilə bilər. Bütün bunlar Türkoloji Qurultayın qərarlarının məntiqi davamı olmaqla, həmin qərarların tarixi əhəmiyyətini təsdiq edir və onların obyektiv zərurətdən meydana gəldiyini göstərir.

Türkdilli xalqların, eləcə də Azərbaycan xalqının mədəni həyatında böyük rol oynamış Birinci Türkoloji Qurultayın 80 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1.Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə Birinci Türkoloji Qurultayın 80 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2.Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**

*Azərbaycan Respublikasının Prezidenti.*
*Bakı şəhəri, 9 noyabr 2005-ci il.*

**Birinci Türkoloji Qurultay haqqında görkəmli şəxsiyyətlərin fikirləri**

1926-cı Bakıda Birinci Türkoloji Qurultay çağırıldı. Bu, Türk dünyası üçün böyük tarixi əhəmiyyəti olan bir hadisə idi.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Birinci Türkoloji Qurultay türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni inteqrasiyasında yeni bir mərhələnin təməlini qoyan ən əlamətdar hadisələrdən biridir.

**Akif Əlizadə,**
*akademik*

Birinci Türkoloji Qurultay ilk növbədə türk dünyasının inkişafında baş vermiş böyük mədəniyyət hadisəsidir. Birinci Türkoloji Qurultay – türk dünyasının mədəni birliyinin və mənəvi bağlılığının yeni tarixi epoxadakı vəzifələrini diqqət mərkəzinə çəkən böyük elmi forumdur. Bu qurultay XX əsrin əvvəllərində türkoloji elmi-mədəni mühitin ən aktual məsələlərinə: dilçilik, latın əlifbası, orfoqrafiya, tarix, ədəbiyyat, folklor, incəsənət, etnoqrafiya, terminologiya, metodika sahələrində ən aktual problemlərin həllinə, mövcud səviyyəsinə və inkişaf etdirilməsi yollarına işıq salan mühüm baxışlar sisteminin əməli-nəzəri ifadəsidir.

**İsa Həbibbəyli,**
*akademik*

I Türkoloji Qurultay XX yüzillikdə türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri kimi tarixə düşmüşdür. Türk xaqlarının mədəni inteqrasiyasında xüsusi və mühüm bir mərhələnin əsasını qoymuş bu möhtəşəm Qurultay ilk növbədə geniş vüsəti və böyük bir coğrafi məkanda yaşayan çoxsaylı türk xalqları üçün bir sıra taleyüklü məsələlərin qoyuluşu, işlənib hazırlanması və ardıcıl şəkildə gerçəkləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıyır. Belə ki, məhz bu mötəbər məclisdə keçmiş Sovetlər Birliyi məkanında yaşayan türk xalqlarının tarixi, ədəbiyyatı, dili, əlifbası, etnoqrafiyası və mədəniyyəti ilə bağlı yaxın gələcək üçün düşünülmüş bir sıra mühüm və əhəmiyyətli qərarlar qəbul edilmiş, latın qrafikalı əlifbaya keçidin elmi-metodik prinsipləri ətraflı şəkildə işlənib hazırlanmışdır.

**Möhsün Nağısoylu,**
*akademik*

Birinci Türkoloji Qurultay türk xalqlarının əsrlərlə yığılıb qalmış, həllini gözləyən problemlərini kifayət qədər obyektiv (və dərindən!) müzakirə edərək dövrün elmi-metodoloji imkanları səviyyəsində müəyyən nəticələrə gələ bilmişdir. Həmin problemlərin miqyası son dərəcə geniş olsa da, Qurultay 1) tarix, 2) etnoqrafiya, 3) dil tarixi, 4) orfoqrafiya, 5) terminologiya, 6) əlifba, 7) ədəbi dil, 8) dilin tədrisi metodikası, 9) diyarşünaslıq, 10) ədəbiyyat məsələlərinin müzakirəsini önə çıxarmaqla türk xalqlarının, ilk növbədə, praktik tələblərini qarşılamaq məqsədini izləmiş, bununla belə müzakirələrdə a) elmi, b) sosial (kütləvi) və c) siyasi (ideoloji) maraqlar üz-üzə gəlmişdir.

**Nizami Cəfərov,**
*akademik*

I Türkoloji Qurultay sırf elmi toplantı olmaqla yanaşı, siyasi mahiyyət də daşıyan hadisə idi. 1926- cı ilin fevralında Bakıda keçirilən Qurultay SSRİ məkanında yaşayan bütün türk xalqları arasında elmi əməkdaşlığın, milli özünüdərkin, həm də mədəni inteqrasiyanın zirvəsi sayılır. Həmin dövrdə Sovet İttifaqının tərkibində olan Krım, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Azərbaycan, Başqırdıstan, Yakutiya, Qaraqalpaq və digər bölgələrdən ziyalıların bir araya gəlməsi, bu şəraitdə milli və elmi məsələləri açıq müzakirə

etməsi özü-özlüyündə böyük bir tarixi hadisə idi. Qurultayın məqsədi çoxşaxəli idi: bir tərəfdən türk xalqları arasında əlifba və yazı sistemi üzərində ortaqlıq yaratmaq, digər tərəfdən isə elmi terminologiyanı birləşdirmək, türk dillərinin sistemli öyrənilməsini təmin etmək idi. Eyni zamanda, Qurultay türk xalqlarının öz köklərinə, dil birliyinə və mənəvi varisliyinə qayıdışının təməl prinsiplərini bərpa edirdi.

**Muxtar Kazımoğlu,**
*akademik*

Qurultay komissiyasının qəbul etdiyi prinsiplər türk dillərində vahid yazı sisteminin formalaşmasına və əyalətçiliyin qarşısının alınmasına xidmət etmişdir. Nəticə olaraq, I Türkoloji Qurultayın qərarları və tövsiyələri müasir türk dillərinin standartlaşdırılması və əlifba islahatları üçün hələ də elmi və praktik əhəmiyyət daşıyır.

**Mahirə Hüseynova**,
*Professor*

1926-cı ilin fevral-mart aylarında Bakı beynəlxalq miqyaslı mühüm elmi-mədəni və ictimai-ideoloji toplantıya - Birinci Türkoloji qurultaya ev sahibliyi etdi. Şərq xalqlarının 1920-ci ilin sentyabrındakı qurultayının məntiqi davamı sayılacaq elmi-siyasi xarakterli forum Azərbaycanın həqiqətən də Şərqlə Qərb arasında fikir və mədəniyyət körpüsü olduğunu inandırıcı şəkildə ortaya qoydu.

**Vilayət Quliyev,**
*Filologiya elmləri doktoru*

Qurultayın elə o vaxt rus dilində nəşr olunmuş stenoqrammasıyla tanış olanda və bütün sonrakı hadisələri göz önünə gətirəndə ən çox bu üç söz xəyalımda canlandı: Fərəh. Ümid. Faciə.

Hətta quru stenoqram hesabatından aydın görünür ki, iştirakçılar Qurultayı böyük FƏRƏH hissiylə keçiriblər. Mübahisə də ediblər, bir-birləriylə razılaşmayıblar da, amma bütün çıxışlarda türk xalqlarının misilsiz mənəvi və mədəni intibahına böyük ÜMİD səslənir. Və

qurultaydan sonra keçən müsibətli illəri, həm ayrı-ayrı qurultay iştirakçılarının, həm də bütün türk xalqlarının başına gələn bəlaları yada salanda FACİƏ sözü meydana çıxır.

**Anar,**
*Xalq yazıçısı*

Türkoloji qurultay təkcə dünya türkologiyasının tarixində deyil, Azərbaycan siyasi tarixində mühüm hadisə idi və hətta əminliklə demək olar ki, o dövrdə ən əhəmiyyətli, hadisə idi. Bir əsr əvvəl Bakıda keçirilən bu tarixi qurultay yüz ildir ki, dünyanın humanitar platformasında ən aktual məsələlərdən biri olaraq qalır və getdikcə türk dövlətlərinin siyasi həyatına, türk düşüncəsinin məfkurəvi aspektlərinə sirayət edir. Bakının dünya türkologiyasının deyil, türk düşüncəsinin mərkəzinə çevrilməsinə rəvac verir. Qurultayda müzakirə olunan problemlər sırf elmi məsələlər idi, özündə tarixə, ədəbiyyata, linqvistikaya, etnoqrafiyaya dair ciddi məsələləri ehtiva edirdi. Alt qatda isə gələcəkdə yaradılacaq türk birliyinə yol açırdı ki, biz bu gün həmin tarixi prosesin iştirakçılarıyıq.

**Elnarə Akimova,**
*Filologiya elmləri doktoru*

Böyük Azərbaycan dramaturqu Cəfər Cabbarlının Birinci Türkoloji qurultayda iştirak etməsi, “Türkoloji qurultay və sərf-nəhv məsələsi” adlı məqalə yazması, “İran istiqlaliyyət mübarizəsi uğrunda” kitabının tərcüməsi və nəşri, professor Vəli Xuluflunun türkoloqların ali məclisinə qatılması barədə ilk dəfə geniş məlumat verilmişdir. Böyük dramaturqun məfkurəvi türkçü, milli sənətkar kimi yetişməsində Birinci Türkoloji Qurultayın mənəvi təsiri şübhəsizdir.

**Asif Rüstəmli,**
*Professor*

Günümüzden doksan yıl önce Baku'de toplanan Birinci Turkoloji Kurultayı, Türkoloji araştırmalarının tarihinde önemli bir donum noktası olmuştur. Kuşkusuz bu Kurultay'ın aldığı en önemli karar Türk dünyasında ortak bir alfabe kullanılmasıdır. Kurultay'da günlerce süren tartışmalardan sonra Latin alfabesinden alınan harflerden oluşan Birleştirilmiş Yeni Turk Elifbası 6 Mart 1926 günü yapılan on yedinci oturumda kabul edilmişti.

**Şükrü Haluk Akalın**,
*Professor*

Bakü Türkoloji Kurultayı, Türkluk bilimi tarihinde kendisinden en çok bahsedilen toplantılardan biridir. Hakkında yapılan her bir çalışma kurultayın siyasi yönünü değerlendirmekle beraber Türkoloji tarihinde birçok ilklere imza attığı, günümüzde bile önemli ve güncel meseleleri tartıştığı görülmektedir.

**Mehmet Fatih Kirişçioğlu,**
*Professor*

## Qurultay haqqında ümumi məlumat

Birinci Türkoloji Qurultay 1926-cı ildə 26 fevral - 6 mart tarixlərində Bakı şəhərində İsmailiyyə sarayında keçirilmiş və türk dünyasının elmi-mədəni tarixində mühüm hadisə kimi qiymətləndirilir. Bu qurultay, müxtəlif ölkələrdən gəlmiş alimləri, dilçiləri və tədqiqatçıları bir araya gətirərək türk xalqlarının dili, ədəbiyyatı və tarixi ilə bağlı ortaq problemlərin müzakirəsini məqsəd qoymuşdur. Qurultay xüsusilə türk dillərinin öyrənilməsi və inkişafı istiqamətində yeni yanaşmaların formalaşmasına təkan vermişdir. Qurultay həm də məşhur türkoloq Radlovun və İsmayıl bəy Qaspıralının şərəfinə keçirilib. Qurultayın iclaslarına Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd bəy Ağamalıoğlu sədrlik etmişdir.

Qurultayda Sovet İttifaqı ərazisində yaşayan türk xalqları ilə yanaşı, Türkiyə və digər ölkələrdən olan mütəxəssislər də iştirak etmişdir. Burada əsas müzakirə mövzularından biri türk dillərinin əlifba məsələsi idi. Həmin dövrdə bir çox türk xalqları ərəb əlifbasından istifadə edirdi və bu əlifbanın fonetik baxımdan türk dillərinə tam uyğun gəlmədiyi qeyd olunurdu. Qurultay iştirakçıları latın qrafikalı yeni əlifbaya keçidin daha məqsədəuyğun olduğunu vurğulamış və bu istiqamətdə mühüm qərarlar qəbul etmişlər.

Bundan əlavə, qurultayda terminologiyanın vahidləşdirilməsi, ədəbi dillərin inkişafı, dialektlərin öyrənilməsi və ortaq elmi prinsiplərin müəyyənləşdirilməsi kimi məsələlər də geniş müzakirə olunmuşdur. Alimlər türk dillərinin qohumluq əlaqələrini daha dərindən araşdırmaq, ortaq lüğət fondunu müəyyənləşdirmək və elmi əməkdaşlığı gücləndirmək barədə fikirlər irəli sürmüşlər.

Qurultayın nəticələri yalnız elmi sahə ilə məhdudlaşmamış, həm də mədəni və ictimai sahələrə təsir göstərmişdir. Latın əlifbasına keçid ideyası sonrakı illərdə bir sıra türk respublikalarında həyata keçirilmiş və savadlılıq səviyyəsinin artmasına müəyyən töhfə vermişdir. Eyni zamanda, bu qurultay türk xalqları arasında mədəni yaxınlaşma və qarşılıqlı anlaşmanın güclənməsinə şərait yaratmışdır.

Nəticə etibarilə, Birinci Türkoloji Qurultay türkoloji elmin inkişafında dönüş nöqtəsi olmuş, türk xalqlarının ortaq irsinin öyrənilməsi və qorunması istiqamətində mühüm addım kimi tarixə düşmüşdür. Bu qurultay həm elmi əməkdaşlığın genişlənməsinə, həm də dil və mədəniyyət sahəsində islahatların həyata keçirilməsinə ciddi təsir göstərmişdir.

## Birinci Türkoloji Qurultayın iştirakçıları

Ümumilikdə 131 nümayəndə iştirak edib. Onlardan 93 nəfər türk, 38 nəfər isə qeyri-türk idi.

***Peşə bölgüsü üzrə:***

3 nəfər Elmlər Akademiyasının üzvü (akademik), 18 professor, 5 dosent, 2 həkim, 1 diplomat, 1 hüquqşünas, 22 müəllim və pedaqoq, 4 ədəbiyyatçı, 14 redaktor və jurnalist, 2 tələbə, 17 siyasətçi. Bundan əlavə, 42 nümayəndənin peşə mənsubiyyəti müəyyən edilməyib.

***Rəyasət Heyətinin tərkibi – 22 nəfər***

Azərbaycan - *S.Ağamalıoğlu, R.Axundov, H.Cəbiyev, B.Çobanzadə*
Rusiya – *V.Bartold, İ.Borozdin, İ.Naqovitsın, S.Oldenburq, M.Pavloviç,*A.Samoyloviç
Qazaxıstan – *Ə.Baytursun*
Yakut Respublikası – *İ.Barahov*
Tatarıstan – *İ.Qəlimcan*
Başqırdıstan - *K.İdelquzin*
Türkiyə - *F. Köprülüzadə*
Dağıstan - *C.Qorxmazov*
Özbəkistan - İ.Nahamov
Qırğızıstan - *K.Tınstanov*
Türkmənistan - *B.Berdiyev*
Krım - *H.Akçökraklı*
Şimali Qafqaz - *U.Əliyev*
Almaniya - *T.Menzel*

***Rəyasət Heyətinin fəxri üzvləri:***

*Əli bəy Hüseynzadə, Banq, Mustafa Quliyev, Marr, Anatoli Lunaçarski və Vilhelm Tomsen*

**Qeyd**: Bu məlumatlar aşağıdakı mənbəyə istinadən verilmişdir.

https://sia.az/az/news/education/1297044.html

**Birinci Türkoloji Qurultayda müzakirə olunan məsələlər**

Əlifba məsələsi;

İmla-orfoqrafiya problemi;

Termin məsələsi;

Tədris-metodika məsələsi;

Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri;

Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil məsələsi;

Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri.

**Birinci Türkoloji Qurultayda təqdim edilən elmi məruzələr**

**Ə.Hüseynzadə**. "Qərbin iki dastanında Türk"

**B.Çobanzadə.** "Türk ləhcələrinin yaxın qohumluğu haqqında"

**H.Zeynallı.** "Türk dillərində elmi terminologiya sistemi haqqında"

**F.Ağazadə.** "Türk dillərində düzgün yazı"

**C.Məmmədzadə.** "Türk xalqlarının əlifba sistemləri haqqında"

**H.Şərəf.** "Ərəb və latın sistemli şriftlər və onların türk-tatar xalqları üçün tətbiqi məsələləri"

**V.V.Bartold**. "Türk xalqlarının tarixinin müasir vəziyyəti və öyrənilməsinin yaxın vəzifələri"

**S.F.Oldenburq**."Türk xalqları arasında ölkəşünaslıq işlərinin metodları"

**A.A.Müller.** "Türk xalqlarının təsviri sənəti haqqında"

**F.Köprülüzadə.** "Türk xalqlarının ədəbi dillərinin inkişafı",

**A.N.Samoyloviç**. "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri"

**S.Y.Malov**. "Qədim türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və perspektivləri"

**N.F.Yakovlev**. "Türk millətlərinin sosial və mədəni şəraitləri ilə bağlı əlifba sisteminin qurulması problemləri"

**Kemanov.** "Türk dillərinin tədrisi metodikasının əsasları"

**N.N.Poppe**. "Türk dillərinin altay dillərinin qarşılıqlı qohumluğu məsələsinin tarixi və müasir vəziyyəti"

**T.Menzel.** "Balkan türkləri ədəbiyyatının öyrənilməsinin yekunları və perspektivləri"

**L.V.Şerban.** "Orfoqrafiyanın əsas prinsipləri və onların sosial əhəmiyyəti"

## Birinci Türkoloji Qurultayın nəticəsi

1923-cü ildən Azərbaycanda yeni türk əlifbasının dövlət əlifbası kimi qəbul edilməsinə baxmayaraq, məhz bu qurultaydan sonra rəsmi şəkildə yekdilliklə latın qrafikalı əlifbaya keçid gerçəkləşdi. Buna qədər respublika ərazisində ərəb yazısından istifadəyə də geniş yer verilirdi. Qurultayın qərarına əsaslanaraq 1929-cu il yanvarın 1-dən Sovet hökuməti ərəb əlifbasının istifadəsinə qadağa qoydu. İri kitab yandırma kampaniyası da bu yazını yaddan çıxartmaq məqsədi güdürdü.

Qurultayın qərarı ilə Sovetlər birliyinə daxil olan digər türk respublikalarında da ərəb əlifbasının yerinə latın qrafikalı yazıya keçildi. Bəzi türk respublikalarında bu keçid daha erkən tətbiq olundu. Belə ki, 1927-ci il iyulun 3-də Tatarıstan respublikasının partiya təşkilatı "Yeni əlifba"ya keçidi rəsmi şəkildə elan etdi. Azərbaycan SSR latın qrafikalı əlifbaya keçəndən 5 il sonra Türkiyə Cümhuriyyəti də bu əlifbaya keçdi.

Beləliklə, qurultayın qərarı nəticəsində bütün türk respublikaları ərazisində 1929–1939-cu illərdə latın qrafikalı əlifbadan istifadə edildi. Lakin 30-cu illərin sonunda Sovet İttifaqı rəhbərliyi tərəfindən latın qrafikalı əlifbanın dəyişdirilməsi yönündə işlərə başlanıldı.

## Fotoqalereya



**Birinci Türkoloji Qurultayın keçirildiyi İsmailiyyə Sarayı**



**Səməd bəy Ağamalıoğlu**
*Qurultay iclaslarının sədri*



**Ruhulla Axundov**
*Rəyasət Heyətinin üzvü*



**Həbib Cəbiyev**
*Rəyasət Heyətinin üzvü*



**Bəkir Çobanzadə**
*Rəyasət Heyətinin üzvü*



**Birinci Türkoloji Qurultayın təşkilat komissiyası**



**Birinci Türkoloji Qurultay iştirakçılarının kollektiv şəkli**



**Mehmed Fuad Köprülüzadə, Əli bəy Hüseynzadə və Salman Mümtaz**



**Birinci Türkoloji Qurultayın iştirakçıları**





| Birinci Türkoloji Qurultayın iştirakçıları | Birinci Türkoloji Qurultayın iştirakçıları |
|---|---|

**Kitablarda**



BİRİNCİ TÜRKOLOJİ QURULTAY:
GÖRÜNƏN VƏ GÖRÜNMƏYƏN TƏRƏFLƏR

ELMİ SESSİYANIN
MATERİALLARI

BAKI – 2016

[I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş “Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar” mövzusunda Beynəlxalq Konfransın Materialları (I hissə): Bakı, 14-15 noyabr 2016-cı il / elmi red. M.Nağısoylu. – Bakı: Elm və təhsil, 2016. – 484 s.]

**Babayev, A.** Birinci Türkoloji Qurultay və Azərbaycanda türkologiya: monoqrafiya / A. Babayev ; elmi red. İ. Həbibbəyli. – Bakı: Elm, 2016. – 335 s.







**Babayev, A**. Türksoyun birlik səsi : monoqrafiya / A.Babayev ; elmi red. A. A. Axundov ; rəy.: A. Qurbanov, N. Q. Cəfərov. - Bakı : Təhsil, 2006. - 364 s.

Birinci Türkoloji Qurultay – 80: mövzu sərgisinin ədəbiyyat siyahısı / AMEA Mərkəzi Elmi Kitabxana ; tərt. F.Xanlarova və b. ; red. G.Xələfova. – Bakı: MEK, 2009. – 42 s.

Birinci Türkoloji Qurultay: görünən və görünməyən tərəflər: elmi sessiyanın materialları: Bakı şəhəri, 10 iyun 2016-cı il / tərt.ed.: A.Qəzənfərqızı, Ə.Şamil ; elmi red. A.Xürrəmqızı. – Bakı: Elm və təhsil, 2016. – 99 s.




Birinci Türkoloji Qurultayın 80 illik yubileyinə həsr olunmuş konfransın tezisləri: Bakı – 23-25 may 2006 / red. G.Əmirova. – Bakı: Təhsil, 2006. – 151 s.




**Cəfərov, N**. Azərbaycanşünaslığın əsasları : Ali məktəblər üçün dərs vəsaiti / Nizami Cəfərov, M. Çobanov, Q. Paşayeva ; red. N. Məmmədli ; rəy.: A. M. Piriyev, M. Ə. Əfəndiyev. - Bakı : AzAtaM, 2013. - 352 s.

**Çobanov, M.** I Türkoloji Qurultay və türk dillərinin müasir problemləri: Ədəbi dilimiz xalqımızın milli sərvətidir / M.Çobanov; red. N.Cəfərov ; Azərbaycan Atatürk Mərkəzi. – Bakı: AzAtaM, 2006. – 152 s.

**Çobanzadə, B.** Seçilmiş əsərləri : 5 cilddə / Bəkir Çobanzadə ; bur. məsul Ə. Güləliyev. **C. 5** / red.: V. Adilov, T. Axundova ; rəs. N. Əliyeva. - Bakı : Şərq-Qərb, 2007. - 264 s. - ISBN 978-9952-34-175-1



**Hacıyeva, İ.** Dil quruculuğu və I Bakı Türkoloji Qurultayı: dərs vəsaiti / İ.Hacıyeva ; elmi red. N.Cəfərov. – Bakı: Elm və təhsil, 2019. – 218 s.

**Xəlilov, B**. Birinci Beynəlxalq Türkoloji Qurultay / Buludxan Xəlilov ; elmi red. H.Mirzəyev. – Bakı: Elm, 1999. – 183 s.




**Xəlilov, B.** Türkologiyaya giriş / Buludxan Xəlilov ; red. N. Cəfərov ; rəy.: V. H. Əliyev, A. Bayramov. - 2-ci nəşr. - Bakı : Bakı Çap Evi, 2013. - 384 s.

**Xəlilov, B**. Dil, ədəbiyyat, mədəniyyət / Buludxan Xəlilov ; red. H. Həsənov ; rəy: V. Əliyev, T.Kərimli. - Bakı : Bakı Çap Evi, 2013. - 248 s. ; 24 sm. - ISBN 978-9952-027802




**İbrahimov, E.** Birinci Türkoloji Qurultayda ortaq əlifba, imla və ədəbi dil məsələləri / E.İbrahimov ; red.: V.Quliyev [ön söz], E.Babayeva ; nəşrə məsul Ə.Aslanoğlu ; tərtibat və dizayn İ.Abdulla ; Azərb. Resp. Elm və Təhsil Nazirliyi, Qarabağ Un-ti, Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondu. – Bakı: MİMTA Yayımları, 2026. – 473, [7] s.




**İbrahimov, E**. Türk xalqlarının ortaq əlifba, imla və ünsiyyət dili: monoqrafiya / Elçin İbrahimov ; elmi red. M.Nağısoylu ; rəy. E.Əzizov, K.Bəşirov, T.Baxşıyeva. – Bakı, "Mütərcim", 2017, – 184 s.




**Qacarlı, C.** I Türkoloji Qurultayda dil məsələləri / C.Qacarlı ; elmi red. A.Məhərrəmqızı. – Bakı: Azərnəşr, 2005. – 143 s.

**Qasımov, C.** Birinci Türkoloji Qurultay: şahidlər və şəhidlər / C.Qasımov ; red. M.İmanov ; ön söz N.Cəfərov. – Bakı: Gənclik, 2019. – 735 s.

**Məmmədli, N**. 1926-cı il I Türkoloji Qurultay: tarixi zəmində, arxiv sənədlərində, milli mətbuatda / N.Məmmədli ; elmi red. N.Cəfərov ; elmi məsl. İ.Həbibbəyli ; dizayn. Z.Məmmədov, Ü.Məmmədli ; AMEA, Nəsim ad. Dilçilik İnst-tu. – Bakı: Elm və təhsil, 2026. – 826, [2] s.




**Paşayev, Q.** Seçilmiş əsərləri : 7 cilddə / Qəzənfər Paşayev. **C. 2** / red. M. Arqunşah ; rəy. Q. Kazımov. - Bakı : Təhsil, 2012. - 536 s.

## Dövri mətbuatda

**Abdinova, K**. Tarixi Bakı məclisinin ideyalarını dirçəltmiş türkoloq : I Türkoloji Qurultay - 100 / Kəmalə Abdinova // Xalq qəzeti. - 2025. - 5 dekabr. - № 257. - S. 11.

**Akimova, E**. I Türkoloji Qurultay - türk ruhunun qələbəsi / Elnarə Akimova // Azərbaycan : qəzet. - 2025. - 18 noyabr. - № 244. - S. 10.

**Akimova, E.** Yüz yaşlı əbədiyyət yolçuları: Birinci Türkoloji Qurultay / Elnarə Akimova // Ədəbiyyat qəzeti. - 2025. - 21 noyabr. - № 43/44. - S. 26-27.

**Allahverdiyev, C.** Qərbi Azərbaycanda əlifba islahatı və mədəni hərəkat (1922- 1929) // Xalq qəzeti. – 2026. – 11 fevral. - №26. – S.12.

**Aydınoğlu, T**. I Türkoloji Qurultayın qurucuları və dərsləri: tarix və müasirlik : AMEA-da tarixi Bakı məclisinin 1 əsrlik yubileyinə həsr edilmiş beynəlxalq konfrans / Tahir Aydınoğlu // Xalq qəzeti. - 2026. - 28 fevral. - № 39. - S. 13.

**Azadi, S.** Türkoloji qurultay: Tarixi missiya və milli kimliyin dirçəlməsi / Sevinc Azadi // İki sahil. - 2025. - 20 noyabr. - № 211. - S. 8.

**Azadi, S.**Türk xalqlarının elmi-mədəni birliyi naminə atılmış tarixi addım / Sevinc Azadi // İki sahil. - 2025. - 9 oktyabr. - № 182. - S. 8.

**Bayramova, Y**. Bir dil, bir ruh, bir gələcək! / Yeganə Bayramova // Yeni Azərbaycan. - 2025. - 25 oktyabr. - № 194. - S. 5.

**Bekirova, Z.** Krım nümayəndələri Birinci Türkoloji Qurultayda : Birinci Türkoloji Qurultayın 100 illiyinə / Zera Bekirova // 525-ci qəzet. - 2025. - 9 dekabr. - № 224. - S. 10-11.

Birinci Türkoloji Qurultayın 100 illik yubileyin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezdentinin Sərəncamı ( 22 oktyabr 2025-ci il) // Ədəbiyyat qəzeti. - 2025. - 24 oktyabr. - № 38/39. - S. 2.

**Cəfərov, N**. Birinci Türkoloji Qurultayda ədəbiyyat məsələləri / Nizami Cəfərov // Ədəbiyyat qəzeti. - 2025. - 3 oktyabr. - № 36. - S. 14-15.

**Cəfərov, N.** Birinci Türkoloji Qurultayın yüzüncü ildönümü ərəfəsində düşüncələr / Nizami Cəfərov // Azərbaycan : jurnal. - 2025. - № 10. - S. 90, 105.

**Cəfərov, N**. Qardaş xalqların ilk elmi-məfkurəsi məclisi : [müsahibə] / Nizami Cəfərov // Xalq qəzeti. - 2025. - 24 oktyabr. - № 228. - S. 7.

**Əhmədov, N**. Azərbaycan bu gün də türkoloji mərkəzdir / Namiq Əhmədov // Xalq qəzeti. - 2025. - 1 noyabr. - № 234. - S. 14.

**Əhmədov, N.** Azərbaycanda yeni əlifba axtarışı / Namiq Əhmədov // Xalq qəzeti. - 2025. - 3 dekabr. - № 255. - S. 10.

**Əhmədov, N**. Əhməd Baytursunov və ortaq türk əlifbası ideyası : I Türkoloji Qurultay - 100 / Namiq Əhmədov // Xalq qəzeti. - 2025. - 14 noyabr. - № 242. - S. 13.

**Əhmədov, N**. Özbəkistan nümayəndələri Bakı məclisində / Namiq Əhmədov // Xalq qəzeti. - 2025. - 16 dekabr. - № 264. - S. 13.

**Əhmədov, N**. Sovet Azərbaycanının baş əlifba islahatçısı : Səməd ağa Ağamalıoğlu "türkçülüyə dözümlü" bolşevik idi. : I Türkoloji Qurultay - 100 / Namiq Əhmədov // Xalq qəzeti. - 2025. - 26 dekabr. - № 272. - S. 16.

**Ələddinqızı, N**. Türk xalqlarının inteqrasiyasında tarixi hadisə / Nəzakət Ələddinqızı // Səs. - 2025. - 23 oktyabr. - № 194. - S. 5.

**Əliyeva, İ**. Böyük ümidlərlə başladı, faciə ilə bitdi: Birinci Türkoloji Qurultay – 100 / İradə Əliyeva // Azərbaycan : qəzet. - 2025. - 28 noyabr. - № 252. - S. 9.

**Əliyeva, İ.** Türk dünyasının intellektual dönüş nöqtəsi : I Türkoloji Qurultay - 100 / İradə Əliyeva // Azərbaycan : qəzet. - 2026. - 28 fevral. - № 39. - S. 8.

**Əliyeva, İ**. Uçurum : Azərbaycanın ziddiyyətli siyasi simalarının 37-ci il faciələri / İradə Əliyeva // Azərbaycan : qəzet. - 2026. - 13 mart. - № 47. - S. 11.

**Əliyeva, İ**. Əlifba mücahidi // Azərbaycan qəzeti. – 2026. – 14 yanvar. -№7. – S.15.

**Əliyeva, İ.** Üç şəxsiyyət, üç tale // Azərbayan qəzeti. – 2026. – 4 fevral. - №21. – S.11.
**Fərəcova, Z.** Türk xalqlarının tarixinin parlaq səhifəsi //Azərbaycan qəzeti. – 31 yanvar. - №19. – S.8.

**Hacıyeva, Z.** I Türkoloji Qurultay türk xalqlarının mədəni inteqrasiyasında yeni mərhələ idi / Zemfira Hacıyeva // Azərbaycan : qəzet. - 2026. - 27 fevral. - № 38. - S. 13.

**Həbibbəyli, İ.** Bakı Türkoloji Qurultayının tarixi dərsləri və gələcəyə yönəlik ideyaları : I Türkoloji Qurultay - 100 : [müsahibə] / [söhbətləşdi] N. Qədimoğlu // Xalq qəzeti. - 2026. - 27 fevral. - № 38. - S. 11.

**Hüseynova, M**. Cəlil Məmmədquluzadənin ana dili və əlifba islahatı uğrunda mübarizəsi / Mahirə Hüseynova // Xalq qəzeti. - 2025. - 31 oktyabr. - № 233. - S. 1, 9.

**Xocayev, X.S.** Birinci Ümum Türkoloji Qurultayı / Xalid Səid Xocayev // Ədəbiyyat qəzeti. - 2025. - 21 noyabr. - № 43/44. - S. 30-32.

**İbrahimli, F**. Azərbaycan 1 əsr əvvəl Türk dünyasının mərkəzi ölkəsi rolunda / Fəzail İbrahimli // Xalq qəzeti. - 2025. - 25 oktyabr. - № 229. - S. 9.

**İbrahimov, E.** Birinci Türkoloji Qurultaydan Müasir dövrə: Ortaq əlifba və orfoqrafiya axtarışlarına 100 illik elmi-ideoloji yürüş / Elçin İbrahimov // Ədəbiyyat qəzeti. - 2025. - 3 oktyabr. - № 36. - S. 18, 20.

**İbrahimov, E**. Türk xalqlarının mədəni inteqrasiyasında tarixi hadisə : Birinci Türkoloji Qurultay - 100 / Elçin İbrahimov // Azərbaycan Müəllimi. - 2026. - 28 fevral. - № 8. - S. 6.

**İsmayılov, P.** Tarixi Sərəncam - bir əsr sonra yenidən Bakıda / P. İsmayılov // Yeni Azərbaycan. - 2025. - 24 oktyabr. - № 193. - S. 3.

**Məhəbbətoğlu, Q**. Birinci Türkoloji Qurultayın 100 illiyi: Tarixin işığında, gələcəyin yolunda / Qvami Məhəbbətoğlu // İki sahil. - 2025. - 5 noyabr. - № 201. - S. 8.

**Məmmədli, N**. 100 il əvvəldən gələn səslər : I Türkoloji Qurultay - 100 / Nadir Məmmədli // Xalq qəzeti. - 2025. - 9 dekabr. - № 259. - S. 12. ; 11 dekabr. - № 261. - S.18-19. ; 18 dekabr. - № 266. - S.11. ; 20 dekabr. - № 268. - S.14.

**Məmmədli, N**. 1926-cı il Birinci Ümumittifaq Türkoloji Qurultayın son akkordları / Nadir Məmmədli // Ədəbiyyat qəzeti. - 2026. - 27 fevral. - № 7. - S. 19.

**Məmmədli, N**. Birinci Türkoloji Qurultay məxfi sənədlərdə / Nadir Məmmədli // Xalq qəzeti. - 2025. - 24 oktyabr. - № 228. - S. 1, 8.

**Məmmədli, N.** Terminologiya: ideoloji mübarizənin əsas cəbhələrindən biri / Nadir Məmmədli // Azərbaycan : qəzet. - 2026. - 3 fevral. - № 20. - S. 10. ; 4 fevral. - № 21. - S. 9. ; 5 fevral. - № 22. - S. 10.

**Məmmədli, N.** Birinci Ümumittifaq Türkoloji Qurultayda əlifba məsələsi // Ədəbiyyat qəzeti. – 2026. – 23 yanvar. - №3. – S.6.

**Məmmədli, N**. Türk dillərinin ədəbi dil məsələləri : Ortaq ədəbi dil ideyasının müzakirəsi / Nadir Məmmədli // Xalq qəzeti. - 2026. - 6 fevral. - № 23. - S. 12. ; 10 fevral. - № 25. - S. 17.

**Məmmədli, N**. Türk dünyasında ortaq düşüncə və kimlik axtarışları : [müsahibə] / N. Məmmədli ; [söhbətləşdi] Nadir Əhmədov // 525-ci qəzet. - 2025. - 3 dekabr. - № 220. - S. 11.

**Məmmədli, N**. Türk xalqları hansı əlifbanı seçməlidir : I Tükoloji Qurultay : Ana dilimizin əlifab tarixindən / Nadir Məmmədli // Xalq qəzeti. - 2026. - 5 fevral. - № 22. - S. 12.

**Məmmədov, Q**. Birinci Türkoloji Qurultay - türk əsrinin təməl daşı / Qurban Məmmədov // Azərbaycan : qəzet. - 2024. - 28 iyul. - № 158. - S. 10.

**Məmmədov, N.** Azərbaycan türkoloji ədəbiyyatşünaslığının yeni uğuru // Ədəbiyyat qəzeti. – 2026. – 23 yanvar. - №3. – S.16.

**Məlikli, T**. Sovet-türk kollokviumları / Tofiq Məlikli // Ədəbiyyat qəzeti. - 2025. - 14 noyabr. **- № 42**. - S. 10, 12.

Milli Kitabxanada "Birinci Türkoloji Qurultay: türk xalqlarının mədəni, elmi və mənəvi inteqrasiyasında tarixi mərhələ" mövzusunda Elmi Konfrans keçirilib // Ədəbiyyat qəzeti. - 2026. - 27 fevral. - № 7. - S. 24.

**Orucov, H.** Türk xalqlarının XX əsr elmi-mədəni manifesti // Xalq qəzeti. – 2026.-№17. – S.12.

**Qədimoğlu N**. Xakas türkoloqu Bakı toplantısında// Xalq qəzeti. – 2026. - №14.– S.15.

**Qədimoğlu, N**. Bakı məclisinin başıbəlalı katibi : I Türkoloji Qurultay - 100 / Namiq Qədimoğlu // Xalq qəzeti. - 2026. - 4 fevral. - № 21. - S. 9.

**Qədimoğlu, N**. İrəvan heyəti tarixi Bakı məclisində : Birinci Türkoloji Qurultay - 100 / Namiq Qədimoğlu // Xalq qəzeti. - 2025. - 27 noyabr. - № 251. - S. 10.

**Qədimoğlu, N.** Türkoloji məclisdə fəal iştirakın amansız cəzası : AXC naziri Əhməd bəy Pepinovun cinayəti "xalqına xidmət etmək" olmuşdu / Namiq Qədimoğlu // Xalq qəzeti. - 2026. - 6 fevral. - № 23. - S. 12.

**Qədimoğlu, N**. Türkoloji Qurultayın yubileyi Bakıda elmi məclislərlə qeyd edildi : I Türkoloji Qurultay - 100 / Namiq Qədimoğlu // Xalq qəzeti. - 2026. - 4 mart. - № 41. - S. 12.

**Quliyev, V**. Başqırd, qırğız, türkmən - bunlar bir soydur : Birinci Türkoloji qurultay iştirakçılarının izi ilə / Vilayət Quliyev // 525-ci qəzet. - 2026. - 27 fevral. - № 8. - S. 14-15.

**Quliyev, V**. Birinci Qurultayın ilk tarixçisi : Əli bəy Hüseynzadə Birinci Türkoloji Qurultayda / Vilayət Quliyev // 525-ci qəzet. - 2026. - 6 fevral. - № 5. - S. 14-15.

**Quliyev, V.** Buzlu Yakutiyadan Bakıya türklük sevdası ilə / Vilayət Quliyev // 525-ci qəzet. - 2025. - 15 noyabr. - № 208. - S. 12-13.

**Quliyev, V**. Pantürkçü eston : Artur Zifeld-Simumyaqi haqqında qeydlər / Vilayət Quliyev // 525-ci qəzet. - 2025. - 29 dekabr. - № 233. - S. 12-13. - Birinci Türkoloji Qurultay nümayəndələrinin izi ilə.

**Quliyev, V.** Türkoloji Qurultayın Çuvaş-Azərbaycan nümayəndəsi : Birinci Türkoloji Qurultay nümayəndələrinin izi ilə / Vilayət Quliyev // 525-ci qəzet. - 2025. - 22 noyabr. - № 213. - S. 10-11.

**Qurbanov, S**. Türkoloji Qurultayın tarixi missiyası, milli kimliyin dirçədilməsi / Sadiq Qurbanov // Azərbaycan : qəzet. - 2025. - 14 noyabr. - № 242. - S. 6.

**Rüstəmli, A**. Cəfər Cabbarlı və ölkəmizdə türkoloji hərəkat : ədib Bakı məclisinin hazırlanmasında və gedişində fəal iştirak etmişdi : I Türkoloji Qurultay - 100 / Asif Rüstəmli // Xalq qəzeti. - 2026. - 13 mart. - № 47. - S. 15.

**Rüstəmov, F.** Qurultayın təşkilatçılarından biri: Ali Pedaqoji İnstitutun direktoru Cəlil Məhəmmədzadə : Birinci Türkoloji Qurultay - 100 / Fərrux Rüstəmov // Azərbaycan Müəllimi. - 2026. - 14 mart. - № 10. - S. 6.

**Turan, A**. Bir foto və dörd kartopsal / Azər Turan // Ədəbiyyat qəzeti. - 2025. - 11 oktyabr. - № 37. - S. 7.

**Turan, A**. Birinci Türkoloji Qurultay - film kimi bir hadisə / Azər Turan // Ədəbiyyat qəzeti. - 2025. - 21 noyabr. - № 43/44. - S. 1-25.

**Turan, A**. Əli bəy Hüseynzadənin I Türkoloji Qurultayda yazdığı qeydlər / Azər Turan // Ədəbiyyat qəzeti. - 2025. - 26 sentyabr. - № 35. - S. 16, 18.

Türk dünyasının elmi-mədəni birliyinin özülü 1 əsr əvvəl Bakıda qoyulmuşdu : [müsahibə] / [söhbətləşdi] N. Əhmədov // Xalq qəzeti. - 2025. - 28 oktyabr. - № 230. - S. 11.